“PAŞA Sığorta” ASC-nin Direktorlar
Şurasının 21 iyun 2021-ci il tarixli 14-21 saylı
Protokolu ilə təsdiq edilmişdir.

Direktorlar Şurasının sədri

# “PAŞA Sığorta” ASC-də Etik Normalar Kodeksi

MƏXFİ
“PAŞA Sığorta” ASC-nin icazəsi olmadan bu sənəddən istifadə etmək qadağandır.

**Mündəricat**


1 “PAŞA Sığorta” ASC-nin İDARƏ HEYƏTİ SƏDRİNİN MÜRACİƏTİ ....................3

2 SƏNƏDİN MƏQSƏDİ ....................3

3 BİZNES BAXIŞIMIZ, MİSSİYAMIZ VƏ DƏYƏRLƏRİMİZ ....................4

4 DƏYƏRİMİZ: DÜRÜSTLÜK ....................4

4.1 Prinsip: Qanun, qayda, daxili siyasət və korporativ idarəetmə standartlarına riayət....................4

4.2 Prinsip: Ədalətlilik prinsipinə riayət ....................5

4.3 Prinsip: Qeyri-əxlaqi hərəkət və cinayət fəaliyyətlərinin qarşısının alınması və haqqında məlumat verilməsi ....................5

4.4 Prinsip: Maraqların toqquşmasından çəkinmə....................6

4.5 Prinsip: Şirkətin nüfuzunun qorunması ....................6

4.6 Prinsip: Aktiv siyasi fəaliyyətdən çəkinmə ....................7

4.7 Prinsip: Əqli mülkiyyətin və digər aktivlərin qorunması ....................7

5 DƏYƏRİMİZ: KEYFİYYƏT ....................7

5.1 Prinsip: Bütün işlərimizdə keyfiyyətin əsas tutulması və təmin edilməsi ....................7

5.2 Prinsip: Keyfiyyət və səmərəlilik balansının təmin edilməsi ....................8

5.3 Prinsip: Peşəkar inkişaf fürsətlərinin təmin edilməsi....................9

6 DƏYƏRİMİZ: GƏLİRLİLİK....................9

6.1 Prinsip: Gözləntilər və məqsədlərin aydın müəyyən edilməsi....................9

6.2 Prinsip: Qazanılmış mənfəətlə səhmdarlara (təsisçilərə) və bütövlükdə cəmiyyətə xidmətin göstərilməsi ....................9

6.3 Prinsip: Davamlı iqtisadi və biznes inkişafının təşviq edilməsi....................9

7 DƏYƏRİMİZ: ƏMƏKDAŞLIQ....................10

7.1 Prinsip: Strateji aktivlər və müxtəlif maraqlı tərəflərlə sıx əməkdaşlığa nail olunması......10

7.2 Prinsip: Ayrı-seçkilik, favoritizm, qısnama və hədə-qorxudan azad iş mühitinin təmin edilməsi....................10

7.3 Prinsip: Qarşılıqlı hörmət və diqqətin təmin edilməsi....................11

8 DƏYƏRİMİZ: SAHİBKARLIQ RUHU....................11

8.1 Prinsip: Təşəbbüskarlığın təşviq və təbliğ edilməsi....................12

9 ETİK NORMALARIN POZULMASI BARƏDƏ MƏLUMATIN VERİLMƏSİ.......12

9.1 MƏSLƏHƏT MƏQSƏDİLƏ MÜRACİƏT....................12

9.2 NARAHATLIQLARIN BİLDİRİLMƏSİ ....................13

9.3 ƏVƏZÇIXMANIN YOLVERİLMƏZLİYİ....................14

10 YEKUN MÜDDƏALAR ....................14

11 SƏNƏDİN MƏLUMATLANDIRMA PLANI ....................14

11 SƏNƏDİN MƏLUMATLANDIRMA PLANI ...........**Error! Bookmark not defined.**

## 1 “PAŞA SIĞORTA” ASC-NİN İDARƏ HEYƏTİ SƏDRİNİN MÜRACİƏTİ

Etik davranış öhdəliyimiz “PAŞA Sığorta” ASC-nin fəaliyyət göstərdiyimiz ölkələr, səhmdarlarımız (təsisçilərimiz), əməkdaşlarımız, müştərilərimiz və tərəfdaşlarımız qarşısında qabaqcıl korporativ təcrübə, inam və davamlılıq nümayiş etdirmək missiyasında mühüm yer tutur. Xaricdən möhkəmlənməklə yanaşı, daxili gücümüzü də günbəgün artırmaq bizim üçün mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə Etik normalar kodeksi hər bir komanda üzvümüzün malik olmalı olduğu zehniyyətin formalaşdırılması üçün başlıca vasitə kimi çıxış edir.

Kodeksimiz bizdən etik davranış baxımından gözlənilən bütün prinsipləri əhatə edir və dəyərlərimizi düzgün yaşamağımız üçün bizə istiqamət verir. Hər bir prinsip və davranışı anlamaq, tətbiq etmək, iş yerimizdə gündəlik həyatımızın bir hissəsinə çevirmək, onlara sadiq qalmaq hər birimizin öhdəliyidir.

Beləcə, Kodeks korporativ dəyərlərimizə əsaslanır və peşəkar inkişafa yol açan sağlam iş mühitinin qorunub saxlanılmasına qarşı bizdə arzuolunan münasibət formalaşdırır.

Keyfiyyətli mədəniyyət formalaşdırmaq üçün biz etik normaları düşüncə və davranışlarımıza nüfuz etdirməliyik.

Ailəmizin bir hissəsi olduğunuz, dəyər və prinsiplərimizə daim dəstək göstərdiyiniz üçün Sizə təşəkkür edirəm.

## 2 SƏNƏDİN MƏQSƏDİ

PAŞA Sığortanın (bundan sonra "Şirkət" adlandırılacaq) Etik Normalar Kodeksi (bundan sonra "Kodeks" adlandırılacaq) məqsədi dəyərlərə əsaslanan prinsiplər əsasında Şirkətin hər bir əməkdaşını məsuliyyətli biznes təcrübəsi, dürüst və etik davranış sahəsində ən yüksək standartlara riayət etməyə, Kodeksin dəyərlərinə uyğun düşüncə və davranış formalaşdırmağa, beləliklə də dəyərlərə əsaslanan təşkilatın yaranmasına töhfə verməyə təşviq edən Şirkət mədəniyyətini və mühitini yaratmaqdır.

Kodeks Şirkət rəhbərliyinin və bütün digər əməkdaşların müştərilər, rəqiblər, təchizatçılar, hökumət və özünü idarəetmə orqanları kimi bütün maraqlı tərəflərlə, eləcə də Şirkətlə hər hansı əlaqəsi olan başqa şəxslərlə münasibətlərini tənzimləyir.

İnanırıq ki, etik normalara riayət edən şirkətin (eynilə yaxşı idarə edilən şirkət kimi) biznesdə uzunmüddətli perspektivdə uğur qazanmaq ehtimalı daha böyükdür. İnanırıq ki, yaxşı korporativ idarəçiliyin əsasını etik davranış təşkil edir. Buna görə də hesab edirik ki, maraqlı tərəflərlə etik prinsiplərə əsaslanan münasibətlər Şirkətin davamlı uğuru və biznesin effektiv idarə edilməsi üçün əsasdır.

Kodeks qabaqcıl korporativ idarəetmə təcrübələri və yerli qanunvericiliyə müvafiq qaydada hazırlanıb.

Kodeksin effektivliyinin şirkətin rəhbərliyindən - onun direktorlarlarından asılı olduğunu düşünür, buna görə də ilk növbədə bu şəxsləri Kodeksə əməl etməyə və bununla həmkarları üçün arzuedilən işgüzar davranış nümunəsi olmağa təşviq edirik.

Kodeks Şirkətin İdarə Heyəti tərəfindən qəbul edilmiş, əməkdaşlara və ictimaiyyətə açıqlanmışdır. Onun tətbiqi monitorinq edilir və etik davranış pozuntuları müəyyən edilmiş qayda və prosedurlar əsasında həll edilir.

## 3 BİZNES BAXIŞIMIZ, MİSSİYAMIZ VƏ DƏYƏRLƏRİMİZ

**BİZNES BAXIŞIMIZ** – Biz güvənli gələcək üçün sığortanın sadə və əlçatan olmasını təmin etməyə çalışırıq.

**MİSSİYAMIZ** – Biz peşəkarlığımıza əsaslanaraq əminlik yaradan və yüksək keyfiyyəti təmin edən xüsusi sığorta həlləri təklif edirik.

**DƏYƏRLƏRİMİZ**:

- DÜRÜSTLÜK
- KEYFİYYƏT
- GƏLİRLİLİK
- ƏMƏKDAŞLIQ
- SAHİBKARLIQ RUHU

Beş dəyərimiz PAŞA Sığorta ümumi fəlsəfəsinin, missiya və biznes baxışının təcəssümüdür.

Etik prinsiplərimiz (bundan sonra "Prinsip" adlandırılacaq) dəyərlərimizə bağlıdır və bizə iş yerində dəyərlərimizin necə tətbiq edilməli olduğu ilə bağlı istiqamət verir.

## 4 DƏYƏRİMİZ: DÜRÜSTLÜK

Biznesimizin təməlində dürüstlüyə tam sadiqlik dayanır. Bizim üçün bu, həmişə və hər zaman, hətta heç kəsin müşahidə etmədiyi halda belə yalnız düzgün olan addımı atmaq deməkdir. Ən bəsit səviyyədə bu, fəaliyyət göstərdiyimiz ölkənin qanunlarına və qaydalarına hörmətlə yanaşmaqdır. Dürüstlük, hətta çətinliklərlə üz-üzə qaldıqda belə şirkətin davranış qaydalarına sadiq qalmaq deməkdir. Bu, heç vaxt şirkətin maraqlarını şəxsi mənfəət naminə qurban verməmək deməkdir. Dürüstlük özümüz, həmkarlarımız, müştərilərimiz və tərəfdaşlarımız qarşısında vicdanlı olmaq və onların etimadını qazanmaq deməkdir.

### 4.1 Prinsip: Qanun, qayda, daxili siyasət və korporativ idarəetmə standartlarına riayət

- Bütün müvafiq qanun və qaydaları öyrənməyə və onlara əməl etməyə razılaşırıq.
- Şirkətin bütün daxili siyasətlərinə əməl etməyə razılıq veririk.
- Qanuna zidd hərəkət edən hüquqi və ya fiziki şəxsə yardım etməməyə razılaşırıq.
- Biz təhlükəsizlik iş prosedurlarını dəstəkləməyə və iş yerlərində təhlükəsizliyi təmin etməyə, eləcə də, bütün təhlükəsizlik qaydalarına və ümumi təhlükəsizlik praktikalarına əməl etməyə razılıq veririk.
- Qanuna zidd hərəkət etməmək öhdəliyimizə götürür və buna əməl etməyə razılaşırıq. Bura sadalananlar daxildir (lakin bu siyahı aşağıdakılarla məhdudlaşmır): dürüst olmamaq, mənəviyyatsızlıq, qeyri-qanuni narkotik vasitələrdən istifadə, qumar oynamaq, spirtli içkinin təsiri altında olmaq, iş yerində tənbəllik və iş yerində hörmətsizlik.
- Biz əmək münasibətlərinin etimad və inam tələb etdiyini təsdiq etməyə, işəgötürən tərəfindən adəti biznes fəaliyyəti çərçivəsində verilən bütün qanuni və əsaslı əmrlərə əməl etməyə razılıq verir, əmək müqaviləmizdə razılaşdırılmış tapşırıqları yerinə yetirmək öhdəliyi götürürük.
- Şirkət kimi biz yalnız təyin edilmiş hüquq və səlahiyyətləri yerinə yetirir, səlahiyyətlərimizdən kənar hərəkət etmirik (Şirkətin məqsəd və səlahiyyətlərindən başqa).

- Biz yalnız təyin edilmiş hüquq və səlahiyyətlərimiz çərçivəsində hərəkət etməyə, bəyan edilmiş səlahiyyətlərimizi aşan hər hansı hərəkətə yol verməməyə razılıq veririk.
- Biz ən qabaqcıl korporativ idarəetmə standartlarına riayət göstəricilərini yüksəltməyə çalışacağımıza razılıq veririk, belə ki, korporativ idarəetmə standartlarının Şirkətin effektiv, sahibkarlıq ruhunda və ehtiyatla idarə edilməsinə dəstək verdiyinə və bunun sonda uğura gətirib çıxardığına inanırıq.
- Biz cəmiyyətə fayda gətirən, korporativ sosial məsuliyyətə malik vətəndaş kimi hərəkət edəcəyimizlə razılaşırıq.
- Bütün müvafiq sosial və ekoloji qanun və qaydalara, Şirkət siyasətlərinə əməl etməyə razılıq veririk.

## 4.2 Prinsip: Ədalətlilik prinsipinə riayət

- Bütün maraqlı tərəflərlə ədalətli rəftar etməyə razılıq veririk. Maraqlı tərəflərlə münasibətlər çərçivəsindəki qərarlarımızı irq, dərinin rəngi, din, milli mənşə, vətəndaşlıq, vətəndaşlıq vəziyyəti, gender, gender kimliyi, cinsi oriyentasiya, yaş, əlillik və başqa bənzər əlamətlər əsasında qəbul etmirik.
- Biz manipulyasiya, gizlətmə, insayder məlumatlarından sui-istifadə, əhəmiyyətli faktların təhrif edilməsi və ya hər hansı başqa ədalətsiz yollarla başqası üzərində ədalətsiz üstünlük əldə etməməyə razılıq veririk.
- Biz səhmdarlarımızı (təsisçilərimizi) Şirkətimizin performansı, əhəmiyyətli qanunlar çərçivəsində mövcud perspektivləri barədə dəqiq, həqiqətəuyğun, başa düşülən və faydalı məlumatlarla təmin etməyə razılıq veririk.
- Maraqlı tərəflərlə məlumat mübadiləsini qanunvericilik çərçivəsində, həssas məlumatları açıqlamadan, eləcə də müştəri məlumatlarını məxfi saxlamaqla etməyə razılıq veririk .
- Biz azad və ədalətli rəqabət prinsipinə əməl etməyə və beləliklə, qiymətlərin fiksasiyası, bazarların bölünməsi, sənaye və ya kompüter casusluğu kimi haqsız rəqabət davranışından yayınmağa razılıq veririk.

## 4.3 Prinsip: Qeyri-əxlaqi hərəkət və cinayət fəaliyyətlərinin qarşısının alınması və haqqında məlumat verilməsi

- Biz fırıldaqçılıq, çirkli pulların yuyulması, terrorçuluğun maliyyələşdirilməsi, insayder sövdələşməsi, əlbir olma, korrupsiya və rüşvətxorluq, məcburetmə, oğurluq və ya qaçaqmalçılıq kimi qeyri-qanuni fəaliyyətlərlə məşğul olmamağa razılıq veririk.
- Qazandığımız inam və etibardan sui-istifadə etməməyə, özümüzün və ya Şirkətin maraqları üçün hər hansı şəxsə (dövlət, fərd və ya kommersiya) rüşvət təklif etməməyə və rüşvət almamağa razılıq veririk.
- Şirkətin hər hansı işgüzar fəaliyyəti, xidməti və ya məxfi məlumatı müqabilində hər hansı fərd, biznes müəssisəsi, təşkilat, dövlət idarəsi, dövlət qulluqçusu, siyasi partiya və ya hər hansı başqa şəxsdən dəyərli bir şey xahiş və ya tələb etməməyə və dəyərli heç nə qəbul etməməyə razılıq veririk.
- Fəaliyyətlərinə təsir etmək məqsədilə hər hansı fərd, biznes müəssisəsi, təşkilat, dövlət idarəsi, dövlət qulluqçusu, siyasi partiya və ya hər hansı başqa şəxsə dəyərli bir şey verməməyə, təklif və ya vəd etməməyə razılıq veririk.

- Bu Kodeksdə müəyyən edilən prosedurlara uyğun olaraq, həmkarımızın, hər hansı daxili və ya xarici maraqlı tərəfin qeyri-qanuni olduğuna inandığımız hər hansı fəaliyyəti haqqında məlumatın verilməsi üçün öhdəlik daşıdığımızla razılaşırıq.

### 4.4 Prinsip: Maraqların toqquşmasından çəkinmə

- Öz şəxsi maraqlarımızı Şirkətin maraqlarından üstün tutmamağa razılaşırıq.
- Şirkətimizlə maraqlarımızın toqquşmasından çəkinməyə razılıq veririk.
- Şirkət daxilindəki mövqeyimizdən, Şirkətin məhsulları və xidmətləri haqqında məlumatlardan öz şəxsi mənafeyimiz üçün istifadə etməməklə razılaşırıq.
- Hər hansı sövdələşmə və ya razılaşmada birbaşa və ya dolayı olaraq şəxsi marağımız olduqda və bu, maraqların toqquşmasını nəzərdə tutduqda, marağımızın olduğunu əvvəlcədən Şirkətə açıqlamağa razılıq veririk.
- Şirkətə sadiqliklə xidmət etmək vəzifəmizi yerinə yetirməyə razılıq veririk. Biz əmək münasibətlərimizin davam etdiyi müddətdə bank və qeyri-bank institutları ilə işləməklə razılaşırıq.
- Biz Şirkətin işgüzar münasibətlərinin olduğu hər hansı təchizatçı, müştəri və ya başqa şəxslərdən biznes qərarlarının qəbuluna təsir etmək məqsədi daşıyan hədiyyə və ya borc qəbul etməməyə və onlara belə təkliflər irəli sürməməyə razılıq veririk.
- Maraqların toqquşduğu vəziyyətlərdə şəxsi mənafeyimizi güdməmək, şirkətin əmlakından, məlumat və ya mövqeyindən icazə verilməyən şəxsi qazanc üçün istifadə etməməyə razılıq veririk.

### 4.5 Prinsip: Şirkətin nüfuzunun qorunması

- Şirkətin nüfuzunu ən dəyərli aktivlərimizdən biri hesab etməklə, Şirkətin təhlükəsiz və etibarlı maliyyə institutu kimi nüfuzunu qorumağa və onu hər hansı zərərdən qorumağa razılıq veririk. Şirkətin nüfuzunun komandanın hər bir üzvü tərəfindən formalaşdırıldığını və Şirkətin nüfuzunun maraqlı tərəflər üçün uzunmüddətli tərəfdaşın seçilməsində böyük əhəmiyyət daşıdığını başa düşürük. Buna görə də biz qərar qəbulunda, gündəlik xidmətlərin göstərilməsi və ya maraqlı tərəflərlə ünsiyyətin hər bir məqamında yüksək biznes etikası standartlarına riayət etməyə razılıq veririk. Münasibətlərin başlandığı andan ədalətli, nəzakətlə və peşəkar hərəkət etməklə loyallıq yaratmağa və onu mühafizə etməyə çalışırıq.
- Biz Şirkət tərəfindən qəbul edilmiş simvol və ya başqa dizaynın sosial mediada şəxsi mesajların ötürülməsi üçün istifadə edilə bilməyəcəyi ilə razılaşırıq.
- Şirkət olaraq biz maliyyə göstəricilərimizin, eləcə də məhsul və xidmətlərimizin təbliği və marketinqi ilə əlaqədar elan və ya reklamlarda ümumi etik normalara və qanunvericiliyə uyğun olaraq dürüst və realist hərəkət edirik. Nüfüzumuzu zədələyən, Şirkət rəhbərliyi haqqında şübhələrə səbəb ola biləcək ifadə formalarından və şəkillərdən istifadədən yayınmalı və başqa şirkətlər ilə müqayisədə daha təhlükəsiz olduğu təəssüratını yaratmalıyıq.
- Şirkət kimi biz öz elan və reklamlarımızda başqa şirkətləri, onların məhsul və xidmətlərini alçaldan hər hansı ifadəyə icazə vermirik.
- Şirkət olaraq biz reklamların müştərilər üçün ayrı-seçkilik səciyyəli, aldadıcı və çaşdırıcı, başqa şirkətlər üçün təhqiramiz olmamasına, yaxud onların təcrübə və biliklərə malik olmadığını iddia etməməsinə çalışırıq.

### 4.6 Prinsip: Aktiv siyasi fəaliyyətdən çəkinmə

- Şirkətin hər hansı əmlakı, avadanlığı, maliyyə vəsaitləri və ya başqa aktivlərindən istifadə etməməyə, siyasi namizəd və ya siyasi partiyalara ödəmə etməməyə, o cümlədən siyasi namizədlərin kampaniyalarına ianə etməməyə, siyasi namizədlərə korporativ obyekt, avadanlıq və ya resurslardan istifadə kimi qeyri-maddi dəstək göstərməməyə razılıq veririk.
- Siyasi fəaliyyətlə yalnız fərd kimi məşğul olmaqda azadıq və cəmiyyət arasında siyasi baxışlarımızı ifadə edən zaman bunların şəxsi baxışlarımız olduğunu ifadə etməliyik.

### 4.7 Prinsip: Əqli mülkiyyətin və digər aktivlərin qorunması

- Əqli mülkiyyəti qorumağa, onunla dəyərli biznes aktivi kimi rəftar etməyə, Şirkətin əqli mülkiyyəti haqqında məlumatlarını yalnız müvafiq tərəflərə açıqlamağa razılıq veririk. Əqli mülkiyyətə biznes planı, aktivlərin əldə edilmə planı, məhsul haqqında məlumat, proqram təminatı, texnologiya, araşdırma, marketinq planları, insan resursları strategiyaları və materialları, ticarət nişanları və müəllif hüquqları ilə qorunan materiallar kimi "beyin məhsulları" daxildir.
- Şirkətlə əmək münasibətlərimiz çərçivəsində hazırladığımız bütün məhsulların şirkətin müstəsna mülkiyyəti olduğu ilə razılaşırıq.
- Şirkətdəki bütün informasiya aktivlərini kibertəhlükələrdən qorumağa informasiyanın təhlükəsizliyinin qorunmasına dair bütün tələblərə ciddi riayət etməyə razılıq veririk.
- Biz adi əmək fəaliyyəti və ya qanun çərçivəsində icazə verilən hallar istisna olmaqla, Şirkətin mülkiyyəti olan hər hansı həssas məlumatı və ya bilgini birbaşa və ya dolayı yolla istifadə etməməyə və ya açıqlamamağa razılıq veririk.
- Biz rəqiblərin əməkdaşlarının və ya başqa üçüncü tərəflərin məlumatların açıqlanmaması öhdəliklərinin pozulmasına gətirib çıxaran məlumatlar daxil olmaqla, rəqiblərin xüsusi mülkiyyət təşkil edən və məxfi məlumatlarını qeyri-qanuni və ya qeyri-etik yolla əldə etməyə çalışmamağa razılıq veririk.
- Biz Şirkətin aktivlərini qorumağa, onların səmərəli istifadəsini, təhlükəsiz və ehtiyatla istismarını və texniki xidmətini təmin etməyə razılıq veririk.
- Maliyyə vəsaitlərindən və ya başqa vəsaitlərdən müvafiq qanunlara zidd məqsədlər üçün istifadə etməməyə və ya belə məqsədlərlə hər hansı xidmət təmin etməməyə razılıq veririk.

## 5 DƏYƏRİMİZ: KEYFİYYƏT

Ətrafdakılar həmişə verdiyimiz məhsulun və ya göstərdiyimiz xidmətin keyfiyyətinə əsasən bizə qiymət verəcək. İşimizin keyfiyyəti heyətimizin fədakarlığı və peşəkarlığı ilə düz mütənasibdir. Bundan yan keçmək mümkün deyil. Biz həmişə qoyduğumuz standartlara riayət edirik, gecə və gündüz vədimizə əməl edirik – optimal nəticələr əldə etmək üçün diqqətli şəkildə keyfiyyəti səmərəliliklə tarazlaşdırırıq. Buna görə də, biz həm fərdi suratdə, həm də təşkilat kimi yeni səylərə can atırıq və daima öyrənməyə və təkmilləşməyə çalışırıq.

### 5.1 Prinsip: Bütün işlərimizdə keyfiyyətin əsas tutulması və təmin edilməsi

- Müştərimizlə sədaqət, diqqət və ehtiyatla rəftar etməyə razılıq veririk.

- Biz müştəri yönümlü xidmət göstərməyə, mükəmməl xidmətin göstərilməsi, müştərilərimizin daim dəyişən ehtiyaclarının ödənməsi məqsədilə biliklərimizi, potensialımızı və texnoloji infrastrukturu inkişaf etdirməyə razılıq veririk.
- Biz müştərinin ehtiyaclarına, şəraitinə və məqsədlərinə müvafiq məhsullar, xidmətlər və həllər təklif etməyə razılıq veririk. Müştərilərimizin konsultasiya və maliyyələşdirilmə ilə təmin edilməsinə məsuliyyətlə yanaşacağımıza razılıq veririk.
- Müştərilərə standartlara və gözləntilərə qənaətbəxş səviyyədə cavab verən məhsullar, xidmətlər və həllər təklif etməyə razılıq veririk.
- Müştərilərə təklif edilən məhsullar və xidmətlər barədə hər zaman aydın və dəqiq məlumat verməyə razılıq veririk.
- Biz diqqətlə dinləməyə, açıqniyyətli olmağa, həm Şirkətin, həm də müştərilərimizin maraqlarına eyni dərəcədə diqqətlə yanaşmağa razılıq veririk.
- Müştərilərimizin şikayətlərinə və narazılıqlarına cavab verməyə razılıq veririk.
- Müştərilərimizə tərəfsiz yanaşmağa, dinindən, maliyyə və sosial vəziyyətindən, gender və başqa əlamətlərindən asılı olmayaraq, bütün müştərilərə eyni keyfiyyətdə məhsul və xidmət təklif etməyə razılıq veririk.
- Biz müştəriyə aidiyyəti olan məxfi məlumatlara məsuliyyətlə yanaşmağa, hazırkı, perspektiv və ya keçmiş müştərilərimizin bizə açıqladığı məlumatların məxfiliyini, onların şəxsi həyatın toxunulmazlığı hüquqlarını qorumağa razılıq veririk.
- Biz müştərilərimizlə hər hansı xüsusi biznes münasibətlərinə daxil olmamağa razılıq veririk (istisna hallar Maraqların toqquşması haqqında siyasətdə təsvir edilir).
- Şirkət olaraq biz xüsusilə işçi heyəti tərəfindən sui-istifadə və ya etinasızlıq hallarına yol verilməsi, İT cinayətləri nəticəsində maliyyə vəziyyətinə zərər verə biləcək risklərə qarşı sığorta, kompensasiya ödəmək öhdəliyi daxil olmaqla, bütün ehtiyat tədbirlərini görməyə razılıq veririk.
- Biz hər zaman müştərilərin müsbət təcrübə yaşaması üçün lazım olan qaydada hərəkət etməyə razılıq veririk.

### 5.2 Prinsip: Keyfiyyət və səmərəlilik balansının təmin edilməsi

- Səmərəlilik və xərclərə qənaəti fəal olaraq təbliğ etməyə və başqalarını bənzər fəaliyyətlərə həvəsləndirməyə razılıq veririk.
- Biz böyük fürsətləri qabaqcadan nəzərə almağa, onları əhəmiyyətli və uzunmüddətli biznes mənfəətinə çevirə bilmək üçün maneələri əvvəlcədən proaktiv olaraq müəyyən etməyə razılıq veririk.
- Göstəricilərin böyük miqyaslı, sistemli təkmilləşdirilməsi üçün əhəmiyyətli resurs və vaxt ayırmağa razılıq veririk.
- Zəruri olmadıqca vaxt və əmək itkisinin qarşısını almaq məqsədilə gündəlik fəaliyyətimiz və layihələrin idarə edilməsi zamanı səriştəli ]məsləhətçilər cəlb etməyə razılıq veririk.
- Vəzifə öhdəliklərimizin icrası üçün ən yaxşı üsulu məntiqlə əsaslandırmağa çalışmağa, gözlənilən keyfiyyət və müddətlərə riayəti təmin etməyə razılıq veririk.
- Əldə edilən irəliləyişi izləyə bilmək, gələcəkdə nəzərə almaq məqsədilə problemləri və səhvləri aydınlaşdırmaq üçün vaxt itirmədən yerinə yetirilmiş layihələrin uçotunu aparmağa razılıq veririk.

### 5.3 Prinsip: Peşəkar inkişaf fürsətlərinin təmin edilməsi

- Davamlı özünüinkişaf və peşəkar inkişaf vasitəsilə müştərilərimizə və maraqlı tərəflərə peşəkar xidmət göstərə bilmək üçün bilik və bacarıqlarımızı qoruyub saxlamağa və təkmilləşdirməyə razılıq veririk.
- Biliklərimizin aktual qalmasını təmin etməyə razılaşırıq.
- Şirkət olaraq biz təlim, kouçinq, mentorluq və başqa müvafiq öyrənmək imkanları vasitəsilə əməkdaşlarımızın inkişafını dəstəkləyirik.

## 6 DƏYƏRİMİZ: GƏLİRLİLİK

Biz öz səhmdarlarımızın və yekun etibarilə cəmiyyətin xeyrinə mənfəət və fayda yaradırıq. Əslində, bu gün qazanılan mənfəət gələcəkdə biznesin dayanıqlı və rəqabətədavamlı olmasına təminat verir. Heyətimiz başa düşür ki, qazanılan hər bir manatla yanaşı qənaət edilən hər bir manat dəyər gətirir. Eyni zamanda, qısamüddətli biznes məqsədlərini izləyərkən biz heç vaxt uzunmüddətli hədəfimizi (dayanıqlı qlobal biznes yaratmaq və onu qoruyub saxlamaq) nəzərimizdən qaçırmırıq. Bu isə öz növbəsində hədəf verdiyimiz hər bir strateji qərara stimul verir.

### 6.1 Prinsip: Gözləntilər və məqsədlərin aydın müəyyən edilməsi

- Səhmdarlar (təsisçilər) Şirkətin inkişafını düzgün istiqamətə yönəldən gözləntilər və məqsədləri müəyyən edirlər. İdeallar dəyərlər və strateji məqsədlər formasında ifadə edilir. Biz bu idealları izləməyə və onlardan gündəlik fəaliyyətlərimiz üçün müqayisə meyarı kimi istifadə etməyə razılıq veririk.

### 6.2 Prinsip: Qazanılmış mənfəətlə səhmdarlara (təsisçilərə) və bütövlükdə cəmiyyətə xidmətin göstərilməsi

- Biz fəaliyyətimizin təkmilləşdirilməsinin əsas fəaliyyət göstəricilərinin inkişafı, kapitaldan səmərəli istifadə və gəlirliliklə nəticələnməsini və bunların da nəticə etibarilə səhmdarlar (təsisçilər) üçün dəyər yaratmasını təmin edirik.
- Ümumi öhdəliklərimizi unutmamaq şərtilə səhmdarların (təsisçilərin) gəlirini maksimuma yüksəltməyə razılıq veririk.
- Səhmdar (təsisçi) dəyərinin artırılması, strateji məqsədlərin həyata keçirilməsi zamanı ətraf mühit və cəmiyyətin maraqları çərçivəsində hərəkət etməyə razılıq veririk.
- Biz Şirkət tərəfindən müəyyən edilmiş korporativ sosial məsuliyyət prinsiplərinə əməl etməyə razılıq veririk.
- Şirkət kimi biz ehtiyacı olan təşkilat və ya insanlara müəyyən vəsaitin yönəldilməsi öhdəliyimizi başa düşürük.
- Şirkət olaraq biz hökumət və vətəndaş cəmiyyətinin vacib və etibarlı tərəfdaşı olmaq məqsədilə təhsili dəstəkləməyə və təhsildə iştirak etməyə davam edirik.

### 6.3 Prinsip: Davamlı iqtisadi və biznes inkişafının təşviq edilməsi

- Biz yalnız qazanc deyil, həm də qənaət üsulu ilə davamlı iqtisadi və biznes inkişafını stimullaşdırmağa razılıq veririk.
- Resurslardan məsuliyyətlə və maksimum ehtiyatla istifadə etməyə razılıq veririk.

- Bazarı başa düşməyə, sektora aid biznes məsələləri və tendensiyaları haqqında aktual biliklərə malik olmağa razılıq veririk.

## 7 DƏYƏRİMİZ: ƏMƏKDAŞLIQ

Biz departamentlər, biznes bölmələri və ölkələr boyunca vahid komanda şəklində işləyərkən fenomenal nəticələrə nail oluruq. Müştərilərimiz, tərəfdaşlarımız və təchizatçılarımızla əməkdaşlıq edərkən bazardakı gözləntiləri artıqlaması ilə üstələyirik. Bu sinerjilərin təsiri fərdi surətdə qoyulan istənilən töhfədən dəfələrlə böyükdür. Əməkdaşlıq sağlam iş mühiti yaradır və daha yüksək səmərəliliyə gətirib çıxarır. O, problemlərin həllini sürətləndirir və innovasiyaya yol açır. Etimad və hörmət əməkdaşlıqla başlanır.

### 7.1 Prinsip: Strateji aktivlər və müxtəlif maraqlı tərəflərlə sıx əməkdaşlığa nail olunması

- Biz işimizin bütün aspektlərinin bir-birindən asılı olduğu ilə razılaşır, bir-birimizlə əməkdaşlıq etməyə, komanda kimi hərəkət etməyə, müştərək dəyər və etik prinsipləri bölüşməyə razılıq veririk.
- Biz ümumi məqsədlərə nail olmaq üçün məqsədyönlü şəkildə həmkarlarla işləyir, sərhədlərarası əməkdaşlığı təşviq edirik.
- Biz ümumi məqsəd uğrunda bir-birimizi dinləyir, inkişaf edir və bir-birimizə kömək edirik.
- Biz strateji aktivlər arasında mümkün sinergiyadan istifadə etməyə, müxtəlif perspektivlərdən mənfəət əldə etməyə razılıq veririk.

### 7.2 Prinsip: Ayrı-seçkilik, favoritizm, qısnama və hədə-qorxudan azad iş mühitinin təmin edilməsi

- Biz hər bir əməkdaşa dəyər verməyə, bir-birimizə hörmət və ləyaqətlə yanaşmağa, iş şəraiti, işə qəbul, inkişaf və təlim, mükafatlar, əməyin mühafizəsi və təhlükəsizliyi, imkanların bərabərliyi, ixtisar, ayrı-seçkiliyin və qısnamanın yolverilməzliyi sahələrində ədalətli siyasətlər qəbul etməyə razılıq veririk.
- Şirkət olaraq biz işə qəbul zamanı hər bir əməkdaşa rol və cavabdehliklərinin təsvirini təqdim etməyə, əmək bölgüsünün biznes proseslərə və təşkilati struktura uyğun aparılmasını təmin etməyə razılıq veririk.
- Biz insan hüquqları və azadlıqlarını qorumağa, bir-birimizə hörmətlə yanaşmağa razılıq veririk, əmək münasibətlərində və/və ya işə qəbuldan əvvəl irq, dərinin rəngi, dil, etnik və ya sosial mənsubiyyət, milliyyət, mənşə, maddi vəziyyət və ya mülkiyyət hüququ, yaşayış yeri, yaş, cins, cinsi oriyentasiya, vətəndaş vəziyyəti, əlillik, din, sosial əlamət, hamiləlik, analıq, həmkarlar ittifaqları daxil olmaqla, hər hansı siyasi və ya digər üzvlük, siyasi və ya başqa baxışlar zəminində (hamısı birlikdə "qorunan əlamətlər") hər hansı ayrı-seçkilik qadağandır.
- Əmək münasibətləri ilə əlaqədar hər hansı qərarı bu əlamətlər əsasında qəbul etməməyə razılıq veririk. Şirkət öz üzərinə bərabər əmək haqlarını təmin etmək öhdəliyi götürür. Bərabər əmək haqqı ödənişi, o cümlədən normal iş saatlarından əlavə iş, bayram günləri, mükafatlar, xəstəlik məzuniyyəti üzrə ödənişlər əmək şərtlərində gender zəminində ayrı-seçkiliyi aradan qaldırır.

- Biz əmək haqları, imtiyazlar, mükafatlar və hər hansı başqa ödəniş formaları haqqında məlumatları açıqlamamağa, bu məlumatları başqa əməkdaşlar və ya hər hansı üçüncü tərəflə bölüşməməyə razılıq veririk.
- Biz qısnamaya dözümsüz yanaşmağa və bu hallara qarşı sayıq olmağa razılıq veririk. Biz kiminsə ləyaqətini alçaltmamağa və ya qorxuducu, ədavətli, alçaldıcı və ya təhqiredici mühit yaratmamağa razılıq veririk.

  *"Qısnama cinayət xarakterli hücumdan cinsi istismara, sözlü atışmalara və ya ləqəblərdən istifadəyə, qıcıqlandırma və aldadıcı praktik zarafatlara qədər geniş spektri əhatə edir. Qısnamanın bilərəkdən edilməsinə ehtiyac yoxdur, davranışın şikayətçiyə təsir etməsi kifayətdir".*

  *"Hər hansı şəxsi qorxutmaq, ədavətli, alçaldıcı, təhqiramiz mühit yaratmaq məqsədilə birbaşa və ya dolayı olaraq qısnamaq və ya hər hansı şəxsin statusunun başqaları ilə müqayisədə pisləşməsinə birbaşa və ya dolayı yolla səbəb olacaq şəraitin yaradılması ayrı-seçkilik təşkil edir".*

- Şirkət olaraq biz ədalətli işə qəbul, iş fəaliyyətinin qiymətləndirilməsinin aparılması, əməkdaşların ixtisaslaşma və performans əsasında mükafatlandırılması üçün öhdəlik götürürük.
- Biz dostluq və ya şəxsi münasibətlərin qərar qəbuluna təsir etməsinə imkan verməmək üçün favoritizmə yol verməməyə razılıq veririk.

### 7.3 Prinsip: Qarşılıqlı hörmət və diqqətin təmin edilməsi

- Biz qarşılıqlı hörmət və bir-birimizin nüfuzunu qorumaq öhdəliyinə əməl etməyə razılıq veririk.
- Xüsusilə ehtiramlı yanaşmamız, yaxşı davranışımız və nəzakətimizlə fərqlənməyə razılıq veririk.
- Müxtəliflik və imkanların bərabərliyinə bağlı qalmağa razılıq veririk.
- Şirkət olaraq biz təhlükəsiz iş mühiti yaratmaq, hamımız üçün əməyin mühafizəsi və təhlükəsizliyini və rifahı mümkün dərəcədə təmin etmək öhdəliyi götürürük. Şirkət olaraq biz iş və şəxsi həyat arasında balansın qorunmasını dəstəkləyirik.
- Biz şəxsən xidmət göstərmək və tapşırıqları başqalarına həvalə etməmək öhdəliyimizə riayət etməyə razılıq veririk.
- Başqalarından işlə əlaqəli olmayan şəxsi tapşırıqlarımızı yerinə yetirməyi tələb etməməyə razılıq veririk.
- Bir-birimizlə ünsiyyətdə "açıq qapı" prinsipinə riayət etməyə razılıq veririk.

## 8 DƏYƏRİMİZ: SAHİBKARLIQ RUHU

Ətrafımızdakı dünya daima dəyişməkdədir və buna görə də biz çox vaxt qeyri-müəyyənliklə işləməli oluruq. Biz yeni imkanlar axtarırıq və iri addımlar atmağa – digərlərinin cəsarət etmədiklərini etməyə və gedə bilmədikləri yerlərə getməyə hazırıq. Komandamız çətinliklərdən qorxmur, əksinə, onları artım üçün fürsət kimi dəyərləndirir. Biz əlavə yol qət etmək və ya yeni səylər gerçəkləşdirmək üçün üzərimizə məsuliyyət götürməkdən qorxmuruq. Heyətimiz şirkətə öz şəxsi biznesləri üçün edə biləcəkləri qədər qayğı, istək və diqqətlə yanaşır.

### 8.1 Prinsip: Təşəbbüskarlığın təşviq və təbliğ edilməsi

- Şirkət olaraq biz məqsədlərin həyata keçirilməsində daha məhsuldar olmaq məqsədilə təşəbbüslərin göstərilməsini, qətiyyət və özünəinamı təşviq edən mühit yaratmağa razılaşırıq.
- Şirkət olaraq biz sistemli qaydada əməkdaşlar arasında məlumatları paylaşmağa, müxtəlif kommunikasiya kanalları vasitəsilə rəyləri toplamağa, komanda üzvlərinin qərar qəbulu prosesində iştirakını təşviq etməyə razılıq veririk.
- Şirkət olaraq biz yenilik və təkmilləşmə naminə mövcud şərtlərə meydan oxumağa razılıq veririk.
- Şirkət olaraq biz texnologiyalardan yeni istifadə üsullarını, müştərilərin dəyişən tələb və ya ehtiyaclarının ödənməsini, sistem və proseslərinin təkmilləşdirilməsni əhatə edən innovasiyaları diqqət mərkəzində saxlayırıq. Beləliklə, yenilikçi mühit əməkdaşları cəzalandırılmaq qorxusu olmadan təşəbbüsləri öyrənməyə, bilik, təcrübə, bacarıq, təklif və tövsiyələrini bölüşməyə təşviq edir.
- Biz əməkdaşlar arasında innovasiya və Şirkətə daha çox dəyər qatmaq imkanı yaradan yaxın əməkdaşlığa inanırıq.
- Biz yenilikçi iş üsulları tətbiq etməyə, iş təcrübələrimizi sürətlə dəyişən biznes mühitinə uyğunlaşdırmağa razılıq veririk.

## 9 ETİK NORMALARIN POZULMASI BARƏDƏ MƏLUMATIN VERİLMƏSİ

Biz "açıq qapı" siyasəti yürütməyə razılıq veririk. Bu siyasət bizə davranışın kodeksin forma və məzmununa zidd olub-olmadığından əmin olmadıqda sual vermək, kodeksin şərtlərinin pozulduğuna inandıqda, narahatlığımızı bildirmək imkanı verir.

"Açıq qapı" siyasəti rəhbərliyin əməkdaşlarla açıq və şəffaf ünsiyyətini təşviq etdiyini nəzərdə tutan kommunikasiya siyasətidir. Əməkdaşlar görüşüb sual vermək, təklifləri müzakirə etmək, problemləri və ya narahatlıqları rəhbərliklə həll etmək ehtiyacı hiss etdikdə, məsul şəxslərə yanaşmağa təşviq edilirlər. "Açıq qapı" siyasəti əməkdaşlıq, yüksək performans, rəhbərlik və əməkdaşlar arasında qarşılıqlı hörmət mühitini möhkəmləndirməyə xidmət edir.

### 9.1 MƏSLƏHƏT MƏQSƏDİLƏ MÜRACİƏT

İşimizi yerinə yetirən zaman düzgün hərəkətin nə olduğunun tam aydın olmadığı vəziyyətlərlə üzləşirik. Belə vəziyyətlərdə qanunu, Şirkətin daxili qaydalarını və ya bu Kodeksin maddələrini poza biləcək fəaliyyəti öhdəliyimizə götürməzdən əvvəl suallar verməliyik. Suallarımız olduqda, aşağıdakı şəxslər bizə istiqamət verə bilərlər:

- Birbaşa Rəhbəriniz
- Şirkət üzrə İnsan Resursları və Daxili Kommunikasiya departamentinin rəhbəri
- Şirkət üzrə Risklərin İdarəolunması departamentinin rəhbəri
- Şirkət üzrə Komplayns xidmətinin rəhbəri
- İdarə Heyətinin üzvləri
- İdarə Heyətinin sədri
- Daxili Audit departamentinin rəhbəri

## 9.2 NARAHATLIQLARIN BİLDİRİLMƏSİ

Şirkətdə hər hansı əməkdaşın və ya Şirkətlə hər hansı qaydada əlaqəsi olan şəxslərin faktiki və ya şübhə edilən qeyri-etik davranışları, o cümlədən bu Kodeksinin tələblərinin pozulması barədə məlumat verməк hər kəsin vəzifəsidir. Şirkətin qeyri-etik davranışlar barədə məlumat verən bütün əməkdaşların qorunması, eləcə də onlara hər hansı zəruri dəstəyin təklif edilməsini öz üzərinə götürür.

Qeyri-etik davranış barədə məlumat verən əməkdaş bunu "yaxşı niyyətlə" etməlidir. Yaxşı niyyətlə məlumat vermək, o deməkdir ki, siz həqiqətən məlumat verdiyiniz halın qeyri-etik davranış olduğunu hesab etmisiniz və bu barədə məlumat vermisiniz. Araşdırma nəticəsində səhv etdiyiniz ortaya çıxsa belə, həqiqət olduğuna inandığınız məlumatı bildirmək üçün dürüstcə irəli çıxmalısınız.

Qanunun, Şirkətin daxili qaydalarının və ya bu Kodeksin müddəalarının pozulduğuna inandığımız hər hansı davranışdan xəbər tutduqda və ya bundan şübhələndikdə, sözügedən məsələnin həll edilməsi üçün mümkün qədər qısa zamanda həmin davranış haqqında məlumat verməlisiniz. Bunu aşağıdakılardan birinə uyğun olaraq edə bilərsiniz:

**1-ci seçim** - birbaşa rəhbərinizə məxfi şəkildə məsələ barədə məlumat verə bilərsiniz. Lakin hər hansı səbəbdən rəhbərinizlə müzakirə edə bilmədikdə (məsələn: maraqların toqquşması ola bilər və/və ya məsələni birbaşa rəhbərimizə bildirməkdən çəkinə bilərik), hər zaman Şirkət üzrə İnsan resursları və daxili kommunikasiya departamentinin rəhbəri və/və ya Risklərin İdarəolunması departamentinin rəhbəri və/və ya Şirkət üzrə Komplayns xidmətinin rəhbərinə məlumat verə bilərsiniz.

**2-ci seçim** - məsələ barədə Şirkət üzrə İnsan Resursları və daxili kommunikasiya departamentinin rəhbəri və/və ya Şirkət üzrə Risklərin İdarəolunması departamentinin rəhbəri və/və ya Şirkət üzrə Komplayns xidmətinin rəhbərinə məxfi şəkildə məlumat verə bilərsiniz. Lakin hər hansı səbəbdən onlarla müzakirə edə bilmədikdə (məsələn: maraqların toqquşması ola bilər və/və ya məsələni həmin şəxslərə bildirməkdən çəkinə bilərik), hər zaman İdarə Heyətinin üzvlərinə məlumat verə bilərsiniz.

**3-cü seçim** - İdarə Heyətinin üzvlərinə məxfi şəkildə məlumat verə bilərsiniz. Lakin hər hansı səbəbdən onlarla müzakirə edə bilmədikdə (məsələn: maraqların toqquşması ola bilər və/və ya məsələni İdarə Heyətinin üzvlərinə bildirməkdən çəkinə bilərik), hər zaman İdarə Heyətinin sədrinə məlumat verə bilərik. Hər hansı səbəbdən onlarla müzakirə edə bilmədikdə (məsələn: maraqların toqquşması ola bilər və/və ya məsələni İdarə Heyətinin sədrinə bildirməkdən çəkinə bilərik), hər zaman Şirkət üzrə Daxili Audit departamentinin rəhbərinə məlumat verə bilərik.

Əməkdaş məsələ barədə İnsan resursları və Daxili Kommunikasiya Departamentinin QR Code Reader sistemi vasitəsilə anonim məlumat verməyi seçə bilər. Anonim məlumatlar Qrup üzrə İnsan resursları və İnzibati işlər Departamentinin direktoru tərəfindən qəbul edilir, nəzərdən keçirilir və daha yuxarı rəhbərliyə ötürülür. Bundan sonra əməkdaşa təqdim etdiyi məlumat üzrə növbəti addımlar barədə cavab təqdim edilir. Əməkdaşlar nəzərə almalıdırlar ki, təsirə məruz qalan tərəflər barəsində məlumat olmadıqda və ya təqdim edilən dəlillər natamam olduqda ittihamlar barəsində tədbirlərin görülməsi çətinləşə bilər. Bu səbəbdən verilən məlumatlar kifayət qədər aydın və təfərrüatlı olmalıdır.

Etik qayda pozuntuları barədə məlumatların məxfi saxlanılması gözlənilir. Məlumatı təqdim edən şəxsin kimliyinin açıqlanması adekvat araşdırmanın aparılması və ya hüquqi tələblərin

ödənməsi üçün zəruri və ya məqsədəuyğun ola bilər. Bu halda məsələni qaldıran şəxsdən icazə istənilməlidir.

## 9.3 ƏVƏZÇIXMANIN YOLVERİLMƏZLİYİ

Yaxşı niyyətlə məsləhət üçün müraciət edən və ya Kodeksin pozulması və ya başqa qeyri-qanunu, yaxud qeyri-etik davranış barədə məlumat verən və ya şikayət edən hər hansı şəxsdən əvəz çıxmağa icazə vermirik.

Bununla belə, qarşılıqlı fəaliyyətin nəticəsindən asılı olmayaraq ədalətli, dürüst və açıq olmaq niyyətində səmimi olmayan, başqasına zərər vurmaq üçün saxta məlumat təqdim edən əməkdaşa qarşı intizam tədbiri tətbiq edilir.

## 10 YEKUN MÜDDƏALAR

Bu Kodeksin, Azərbaycan Respublikasının müvafiq qanunlarının tələblərinin pozulması, daxili araşdırmalar çərçivəsində əməkdaşlıqdan imtina işdən azadedilmə daxil olmaqla, intizam tədbirləri üçün zəmin yarada bilər.

Bu kodeks **Şirkətin Direktorlar Şurası** tərəfindən imzalandığı andan qüvvəyə minir.

Sənədi yeniləmək məqsədilə nəzərdən keçirmək məsuliyyətini Şirkətin **Korporativ katibi** daşıyır.

## 11 SƏNƏDİN MƏLUMATLANDIRMA PLANI

| No | Sənəd haqqında məlumat kimlərə verilməlidir? | Hansı məlumatlandırma vasitəsi istifadə olunacaq? | Sənəd haqqında məlumatın göndərilmə tezliyi | Sənədin məlumatlandırılmasına Cavabdeh şəxs |
|---|---|---|---|---|
| 1 | Bütün işçilər | e-mail<br>intranet | Dəyişiklik olunduğu halda | Korporativ katib |

| Sənəd haqqında qısa məlumat | |
|---|---|
| **Sənədin məqsədi, tənzimlədiyi proseslər, əhatə etdiyi fəaliyyət və Cəmiyyətin fəaliyyətinə əlavə etdiyi dəyər.** | Kodeksin məqsədi dəyərlərə əsaslanan prinsiplər əsasında Şirkətin hər bir əməkdaşını məsuliyyətli biznes təcrübəsi, dürüst və etik davranış sahəsində ən yüksək standartlara riayət etməyə, Kodeksin dəyərlərinə uyğun düşüncə və davranış formalaşdırmağa, beləliklə də dəyərlərə əsaslanan təşkilatın yaranmasına töhfə verməyə təşviq edən Şirkət mədəniyyətini və mühitini yaratmaqdır. |
| **Sənədin yerləşdirildiyi elektron qovluğun linki** | |